*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 5 fevral 2020-ci il № 9 (2427) Qiymətı 30 qəpik


# Azərbaycan Ordusunda yeni tədris dövrü başlayıb



XXI əsrin əvvəllərində müharibə şəraitində yaşayan bir ölkənin ordusunun inkişafı prioritet məsələdir və təbii ki, modernləşmə və müasir texnologiya dönəmində bu proses fərqli xüsusiyyətlərə malikdir. Müstəqilliyimizin ilk illərində orduya baxış bir qədər başqa mahiyyət daşıyırdısa, Ümummilli Liderimizin müəyyənləşdirdiyi siyasət sayəsində indi onun mahiyyəti tamamilə dəyişib. Müstəqilliyin ilk illərində pərakəndəlik hökm sürən orduda indi konkret ideologiya və ona uyğun qəbul edilən qərarlar, Azərbaycanın hərbi qanunvericiliyinə əsaslanan Nizamnamələr və ondan irəli gələn nizam-intizam, döyüş hazırlığı, günün tələbləri əsasında qurulan tədris prosesi mövcuddur.

Tədris prosesini gündəlik həyat tərzinə çevirmək nəticəsində ordunun formalaşdırılması və tərbiyə edilməsində bilik və dəyərlərin, davranış standartlarının və əxlaqın müəyyənləşdirilməsinə zərurət yaranır. Təməlində dövlət, cəmiyyət, ölkənin keçmişi, bu günü və gələcəyi haqqında biliklər sistemi olan tədris prosesinin özü artıq vətənpərvərlikdir, yəni, bu, yalnız hiss deyil, ordunu inkişaf etdirmək, onu dünya standartlarına uyğun formalaşdırmaq imkanlarını aramaqdır.

Tədris prosesi, o cümlədən təlimlər hər bir ordunun döyüş hazırlığında əsas istiqamətlərdən sayılır. Çünki yetərli döyüş qabiliyyəti bacarıqlarına yiyələnmədən, peşəkarlığa nail olmadan real döyüş əməliyyatlarını yerinə yetirmək mümkün deyil. Son illərdə dünya müdafiə sənayesində mühüm dəyişikliklərin baş verməsi, xüsusilə çoxsaylı hərbi texnika və məlumatların elektron idarəetmə sisteminə keçidi hərbi sənayedə bir sıra nailiyyətlərin qazanılmasına gətirib çıxarıb.

Bu uğurların əsasını isə döyüş əməliyyatlarını qısa müddətdə aparmaq və canlı itki sayını minimuma endirmək təşkil edir. Təbii ki, hazırda müasir hərbi sənayenin yenilikləri yalnız o ölkələrin ordularında tətbiq edilir ki, həmin ölkələrin dayanıqlı iqtisadi potensialı olsun. Çünki ordu üçün böyük vəsaitlərin tələb olunduğu modernləşmə ciddi investisiyalar tələb edir. Bu mənada, son illərdə ölkəmizdə hərbi müdafiə sənayesinin inkişaf etdirilməsi, bunun da nəticəsində Azərbaycan Ordusunun maddi-texniki bazasının yenilənməsi olduqca böyük əhəmiyyət daşıyır.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində ordumuzun komplektləşdirilməsi sahəsində görülən işlər ölkəmizin hərbi potensialını xeyli artırıb. Bu illər ərzində ölkəmizdəki hərbi hissələrdə infrastruktur yeniliklərinin tətbiqi, qoşun və birləşmələrin milli, eyni zamanda, dünya hərbi sənayesinin ən müasir silah və texnikaları ilə təmin olunması, təlim və tədris prosesinin günün tələbləri səviyyəsində qurulması ordumuzun yeni inkişaf mərhələsinə qədəm qoymasına imkan verib. Təbii ki, texnika ilə təminat məsələnin bir tərəfidirsə, digər tərəfi şəxsi heyətin müasir döyüş hazırlığı qabiliyyətinə yiyələnməsidir. Bu mənada, son illərdə Azərbaycan Ordusunda yeni təlim mərkəzlərinin, hərbi məqsədlər üçün nəzərdə tutulan çöl və poliqonlarda lazımi şəraitin yaradılması, nəhayət, tədris prosesində şəxsi heyətin belə şəraitdən layiqincə istifadəsi üçün imkanların səfərbər edilməsi mühüm əhəmiyyət daşıyır.

Bu günlərdə Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə və hərbi hissələrində yeni tədris dövrü başlayıb. Bütün hərbi hissələrdə keçirilən tədbirlərdə tədris dövrü üçün əsas məqsədlər və vəzifələr, eləcə də onların icra qaydaları diqqətə çatdırılıb.

Ordumuzda tədris prosesi Ali Baş Komandanın tələblərinə, Müdafiə nazirinin əmr və sərəncamlarına müvafiq olaraq döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədilə quruda, dənizdə, havada real təhdid və risklərin nəzərə alınması ilə təşkil edilərək keçiriləcək.

Dərslərin ilk günü bütün hərbi hissələrdə yüksək effektivlik və keyfiyyəti ilə fərqlənən döyüş hazırlığı üzrə məşqlər keçirilib.

Yeni tədris dövrünün başlaması məqsədilə Naxçıvan Qarnizonu qoşunlarında da döyüş hazırlığı üzrə sutkanın gecə və gündüz vaxtlarında "Həyəcan" siqnalı ilə məşq etdirilib.

2020-ci tədris ilində qarşıda duran əsas məqsəd və vəzifə muxtar respublikanın müdafiəsinin daha etibarlı və tam zəmanətlə təmin edilməsi, Naxçıvan Qarnizonu qoşunlarının qarşılıqlı koordinasiyasıdır.

Qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün yeni tədris ilinin ilk taktiki-sıra məşğələlərinin keçirilməsinə başlanılıb.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri HDQ-nin müasir Dalğıc Təlim Poliqonunun açılışında iştirak edib

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Hərbi Dəniz Qüvvələrinin (HDQ) şəxsi heyətinin döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi və sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər davam etdirilir.*





Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti HDQ-nin hərbi hissələrindən birində yeni inşa edilən infrastruktur obyektlərinin açılışında iştirak edib.

Müdafiə naziri hərbi hissənin ərazisindəki bina, qurğu və avadanlıqlara baxış keçirib.

Sonra Müdafiə naziri yenidən bərpa olunmuş müasir standartlara cavab verən Dalğıc Təlim Poliqonunda olub. Məruzə olunub ki, poliqon xüsusi təyinatlıların dalğıc hazırlığı üzrə normativləri və sualtı döyüşün aparılması vərdişlərini məşq etdirmələri üçün nəzərdə tutulub. İnfrastruktura baxış keçirən Müdafiə naziri ərazidə yenidən qurulan hovuz, gəmi və qayıq avadanlıqları kompleksi, barokamera otağı, dalğıc cihazlarına texniki qulluq emalatxanası, suyadalma üçün universal qüllə və müxtəlif məqsədli sinif otaqlarında yaradılmış şəraitlə də tanış olub.

Ərazidə yeni inşa edilən müxtəlif məqsədli çoxsaylı manеələrdən ibarət manеə zolağı hərbi qulluqçuların döyüş və fiziki hazırlığı, eləcə də peşə bacarıqlarının artırılması üçün nəzərdə tutulub.

Xüsusi təyinatlıların nümunəvi çıxışlarını izləyən Müdafiə naziri tapşırıqların daha keyfiyyətli icra edilməsi ilə bağlı komandanlığa müvafiq göstərişlər verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Azərbaycan Respublikasının Müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Suriyanın İdlib şəhərində Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçularının şəhid olması və yaralanması ilə əlaqədar Türkiyə Respublikasının Milli Müdafiə naziri cənab Hulusi Akara və Baş Qərargah rəisi ordu generalı Yaşar Gülerə başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Suriyanın İdlib şəhərində qardaş Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçularının şəhid olması və yaralanması haqqında xəbər məni dərindən kədərləndirdi.

Həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verir və Allahdan səbr diləyirik. Ruhları şad, xatirələri əziz olsun. Bütün yaralılara Tanrıdan şəfa diləyirəm.

Allah rəhmət eləsin".

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***4 fevral 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Şıxlar, Novruzlu, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Naxçıvan Qarnizonu qoşunlarında gənc əsgərlər Vətənə sədaqət andı içiblər

*Naxçıvan Qarnizonu qoşunlarında yanvar ayı ərzində həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlərin andiçmə mərasimləri olub. Əlahiddə Ümumqoşun Orduda keçirilən mərasimdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib, sonra gənc əsgərlər Vətənə sədaqət andı içiblər.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə polkovnik Mehman Gülməmmədov, əsgər Cavid Kərimov və əsgər validеyni Zülfüqar Zeynalov gənc əsgərləri Hərbi andı qəbul etmələri münasibətilə təbrik edərək, xidmətlərində uğurlar arzulayıblar.

Çıxışların ardından Əlahiddə Ümumqoşun Ordu komandanının müavini general-mayor Teymur Eyyubov Naxçıvan Qarnizonunun rəisi general-leytenant Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdırıb. Bildirilib ki, Azərbaycan dövləti inkişaf edib qüdrətləndikcə ordumuz da güclənir. Bu gün ordumuzun yüksək əhval-ruhiyyəli əsgərlərinin, güclü maddi-texniki bazasının olması düşmənə gözdağıdır. İnanırıq ki, bu gün Vətənə sədaqət andı içən gənclərimiz də Hərbi anda sadiq, intizamlı əsgərlər olacaq, silah və texnikanın sirlərini dərindən öyrənərək yenilməz döyüşçü keyfiyyətlərinə yiyələnəcəklər.

Şəxsi heyətin təntənəli keçidindən sonra əsgər valideynləri və yaxınları hərbi hissələrdə yaradılan yaşayış və məişət şəraiti ilə tanış olublar. Valideynlər yaradılan şəraitə görə dövlətimizə minnətdarlıqlarını bildirib və övladlarının Hərbi andı qəbul etmələrindən qürur hissi keçirdiklərini ifadə ediblər.

## "Ermənistan rəhbərliyinin Su-30 təyyarələri ilə bağlı fikirləri ordunun nüfuzunun qaldırılmasına hesablanıb"

Yanvarın 27-də Əlcəzairin şimal-şərqindəki Umm əl-Buaqi vilayətində Rusiya istehsalı olan Su-30SM qırıcı təyyarəsinin naməlum səbəbdən qəzaya uğraması barədə xəbər bu tipli aviasiya vasitələrinin təhlükəsizliyinin şübhə doğurduğu barədə mülahizələri növbəti dəfə gündəmə gətirdi. KİV-də yayılan məlumata görə, qırıcı təyyarənin hər iki pilotu katapult edə bilmədən həlak olub. Ermənistanın Rusiyadan əldə etdiyi Su-30 nəslindən olan qırıcı təyyarələrin müxtəlif modifikasiyalarının qəzaya uğraması barədə bu günə kimi 20-dən artıq statistik məlumat var.

Bunu Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) döyüş imkanlarının hesablanması üzrə mütəxəssisi, ehtiyatda olan polkovnik Oqtay Bədəlov AZƏRTAC-a açıqlamasında bildirib.

O.Bədəlov qeyd edib ki, Su-30 qırıcılarının qəzaya uğraması hallarının artmasından əlavə, onların döyüş keyfiyyətlərinin köhnəliyi və müasir standartlara cavab verməməsi də diqqət çəkir: "Maraqlı bir faktı açıqlayım. Məsələn, keçən əsrin 90-cı illərindən Su-30MKİ qırıcıları Hindistan HHQ-nin silahlanmasında əsas yerlərdən birini tutur. Hindistanda Su-30MKİ qırıcılarının iştirakı ilə baş verən aviasiya qəzaları və insidentlərin 10 faizindən çoxu məhz bu tip təyyarələrin quş sürüsü ilə toqquşması nəticəsində baş verib. Müasir dövrdə baş verən silahlı münaqişələrdə istifadəsi çətin və təhlükələrə qarşı perspektivsiz olan Su-30 təyyarələrinin istismarı çox baha başa gəlir. Belə ki, bu təyyarələrin bir saatlıq uçuşuna sərf olunan məbləğ təqribən 50 min ABŞ dollarından artıqdır. Manevr imkanlarının məhdud və istismarının bahalı olması cari ilin martından "Hindustan Aeronautics" şirkətinin bu tip təyyarələrin istehsalını dayandırması barədə qərar qəbul etməsinə səbəb olub.

Bundan başqa, Malayziya Hərbi Hava Qüvvələrinin silahlanmasındakı Su-30 tipli 28 təyyarədən yalnız 4-ü döyüş qabiliyyətlidir. Digərləri isə bərpa məqsədilə uzun müddətdir təmir zavodlarında saxlanılır".

Ekspertin fikrincə, bu günə qədər baş vermiş qəzalar bir daha göstərir ki, Ermənistanın ağız dolusu danışdığı Su-30 qırıcı təyyarələri heç də şişirdiləcək qədər döyüş imkanlarına malik deyil. Bu səbəbdən Su-30 təyyarələri ilə bağlı Ermənistan hərbi-siyasi rəhbərliyinin səsləndirdiyi fikirlər erməni ictimaiyyətində mənəvi-psixoloji baxımdan tamamilə çökmüş ordunun nüfuzunun artırılması istiqamətində atılan addım olaraq qiymətləndirilmәlidir.

# Naxçıvan Qarnizonu qoşunlarında 2019-cu tədris ilinin nəticələri ilə bağlı yekun müşavirə keçirilib



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin tapşırığına əsasən, Naxçıvan Qarnizonu qoşunlarında 2019-cu tədris ilinin nəticələri ilə bağlı yekun müşavirə keçirilib. Naxçıvan Qarnizonunun rəisi general-leytenant Kərəm Mustafayev müşavirəni açıq elan etdikdən sonra muxtar respublikada ordu quruculuğundan bəhs edən "Ordumuz qürurumuzdur" adlı film nümayiş olunub.*

Naxçıvan Qarnizonunun rəisi general-leytenant Kərəm Mustafayev 2019-cu tədris ilində qoşunlarda döyüş hazırlığının, maddi-texniki təminatın və hərbi intizamın vəziyyətini təhlil edərək bildirib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun diqqət və qayğısı sayəsində müdafiə qüdrəti durmadan artan muxtar respublikada hərbi infrastrukturun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülür, böyük əhəmiyyətə malik layihələr icra olunur.

General-leytenant Kərəm Mustafayev vurğulayıb ki, 2019-cu ildə döyüş hazırlığında əsas diqqət şəxsi heyətin hərbi-peşəkarlıq səviyyəsinin, əməliyyat və döyüş hazırlığı tədbirlərinin effektivliyinin artırılmasına, idarəetmə orqanlarının və qoşunların peşəkar hərbi kadrlarla komplektləşdirilməsinə, döyüş qabiliyyətinin yüksəldilməsinə yönəldilib.

"Qoşunların bir mərkəzdən idarə olunmasının təkmilləşdirilməsi və uzlaşmış fəaliyyətə nail olunması məqsədi ilə ötən tədris ilində bir neçə dəfə Naxçıvan Qarnizonu qoşunlarının birgə təlimləri keçirilib. Aprelin 18-də "Naxçıvan Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinə uzlaşma planı" üzrə görülən işlərin nəticələrinə həsr olunmuş müşavirədə Ali Məclisin sədri qarnizonun birləşmə və hissələrinin qarşılıqlı fəaliyyətini yüksək qiymətləndirib", - deyən Naxçıvan Qarnizonunun rəisi bildirib ki, ötən il Naxçıvan Qarnizonu qoşunları və Türkiyə Silahlı Qüvvələrinin bölmələri ilə iki əməliyyat taktiki təlimi keçirilib. Bunlardan biri Türkiyə Respublikasının Qars şəhərində keçirilən "Qış-2019" beynəlxalq təlimi, digəri isə Naxçıvanda keçirilən "Sarsılmaz qardaşlıq-2019" təlimi olub. Naxçıvanda keçirilən təlimi Ali Məclisin sədri, Türkiyə Respublikasının Milli Müdafiə naziri və Azərbaycan Respublikasının Müdafiə naziri izləyiblər. Bundan başqa, Azərbaycan Ordusu miqyasında keçirilən əməliyyat təlimində də Naxçıvan Qarnizonu qoşunları yüksək peşəkarlıq nümayiş etdiriblər.

Diqqətə çatdırılıb ki, 2019-cu ildə Naxçıvan Qarnizonu qoşunlarının "Culfa" Təlim Mərkəzinin, "N" hərbi hissədə zabit-gizir ailələri üçün 5 mərtəbəli, 44 mənzilli yaşayış binasının və istirahət parkının, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının 15-ci Sərhəd zastavası üçün yeni xidmət və yaşayış kompleksinin, Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsi üçün yeni qərargah binasının, Naxçıvan hərbi şəhərciyində 220 yerlik zabit yataqxanasının istifadəyə verilməsi muxtar respublikada ordu quruculuğu sahəsində görülən işlərin məntiqi davamıdır.



Naxçıvan Qarnizonunun rəisi general-leytenant Kərəm Mustafayev qeyd edib ki, ümumilikdə, ötən il ərzində keçirilən tədbirlər şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin yüksək səviyyədə olduğunu təsdiq edib. Qarnizonun "Bir nəfər hamı, hamı bir nəfər üçün" şüarı əməldə özünü göstərib.

Məruzə ətrafında müzakirələr zamanı Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar naziri general-leytenant Şamı Abdullayevin, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının komandiri general-mayor Niyaməddin Tağıyevin, Hərbi Məhkəmənin sədri Polad Həsənovun, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi polkovnik-leytenant Daşqın Rəhimovun, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının komandiri general-mayor Səlim Niftəliyevin, Hərbi Prokurorun müavini ədliyyə polkovnik-leytenantı Rəşad İsmayılovun, Dövlət Təhlükəsizliyi Xidmətinin İdarə rəisi polkovnik-leytenant Ramin Əhmədovun 2019-cu tədris ilində görülmüş işlər və 2020-ci tədris ilində qarşıda duran vəzifələrlə bağlı məruzə və təklifləri dinlənilib.

Müşavirəyə Naxçıvan Qarnizonunun rəisi general-leytenant Kərəm Mustafayev yekun vuraraq 2020-ci tədris ilində döyüş və ictimai-siyasi hazırlıq üzrə fəaliyyət istiqaməti, qarşıda duran məqsəd və vəzifələrə dair Ali Məclis sədrinin tapşırıqlarını diqqətə çatdırıb. Bildirilib ki, muxtar respublikanın müdafiəsinin daha etibarlı və tam zəmanətlə təmin edilməsi, Naxçıvan Qarnizonu qoşunlarının qarşılıqlı əlaqəsinin koordinasiyası məqsədi ilə Ali Məclis sədri tərəfindən təsdiq edilən "Naxçıvan Qarnizonu qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı" dürüst və dəqiq yerinə yetiriləcək. Yeni tədris ilində Naxçıvan Qarnizonu qoşunlarının əsas səyləri qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə, səfərbərlik, əməliyyat və döyüş hazırlığının düzgün təşkilinə, tabelikdəki qoşunların hazırlıq prosesinə ciddi nəzarət olunmasına və köməkliyin göstərilməsinə, real vəziyyətin daim dərindən öyrənilməsinə və qoşunların hazırlığının təkmilləşdirilməsinə yönəldiləcək.

Sonda döyüş və ictimai-siyasi hazırlıqda yüksək nəticələr əldə etmiş bir qrup hərbi qulluqçuya "Şücaətə görə" medalı, "Hərbi xidmətdə fərqlənməyə görə" 1-ci, 2-ci və 3-cü dərəcəli medalları, "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalı, qiymətli hədiyyə və fəxri fərman təqdim olunub.

**Baş leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

*Nümunəvi xidmət*

# "Müharibə torpaqlarımız işğaldan azad edildikdən sonra başa çatacaq"

*Hər bir insan yaşadığı ömrün tarixini özü yazır. O kəslər ki, ömrünü xalqına, millətinə, yaşadığı cəmiyyətin, onun ordusunun inkişafına həsr edir, bu ömür əbədi yaddaşlara həkk olunur. Sözsüz ki, örnək ola biləcək bir ömür yazmağın özü də fədakarlıq və hünərdir. Bu gün insanlar üçün fədakarlıq göstərərək seçim edə biləcəkləri çoxlu peşələr var. Hərbçi peşəsi bu peşələrin içində xüsusilə seçilir.*



Hərbçi peşəsinin yolçularından biri olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Vəli Əli oğlu Səfiyev ilə "N" hərbi hissəsində tanış olduq.

Vəli Səfiyev söhbət əsnasında bildirdi ki, hərbçi peşəsi digər peşələrdən yalnız Vətənə xidmət amilinin dərəcəsinə görə fərqlənir, dəyərləndirilir. "Bizim üçün yalnız ali bir ölçü, bir amil, bir dəyər var - Vətən! Vətən naminə yaşamaq və xidmət etmək şərəfdir. Biz hərbi qulluqçular üçün harada çalışmağımızdan asılı olmayaraq başlıca istək Vətəni göz bəbəyimiz kimi qorumaqdır. Bizim üçün Vətən amilindən uca, fəxarətli bir məqam olmayıb.

"Hər bir dövlətin ordusu onun əsas sütunlarından biridir", - deyə hərbi qulluqçu sözünə davam etdi. - Bu gün iftixar hissi keçiririk və bütün dünyaya bəyan edirik ki, müstəqil Azərbaycan dövlətinin müstəqilliyini qorumağa və möhkəmləndirməyə qadir olan güclü ordusu var. Ordumuz tam yüksək səviyyədə formalaşıb, müasir tələblər əsasında qurulub və həqiqətən, məğlubedilməz olub. Böyük Qələbə qazanmaq üçün indi daha böyük imkanlarımız var. Bunun üçün ordumuzun vətənpərvər, Vətəninə, müstəqil dövlətinə sədaqətli əsgər və zabitləri var.

Vəli Səfiyev onu da qeyd etdi ki, Azərbaycan Ordusunun şəxsi heyəti öz torpağında vuruşur, öz torpağını qoruyur və torpaqlarımızın azadlığı uğrunda döyüşür. "Bizim işimiz haqq işidir. Azərbaycan Ordusu Aprel döyüşlərində, Günnüt zəfərində düşmənə yerini göstərdi, ona çox böyük sarsıdıcı zərbələr vurdu. Həmin qələbələr Azərbaycanın qətiyyətli və güclü Ali Baş Komandanının rəhbərliyi altında qüdrətli ordusunun formalaşdığını və xalq-dövlət birliyinin tamamilə yeni çalarlarını ortaya qoydu. Artıq Azərbaycan dövləti güclü dövlətdir, ordusu da güclü ordudur. Azərbaycan Ordusunun bütün şəxsi heyəti düşməni məhv etməyə, eyni zamanda, lazım gəldiyi anda Azərbaycan torpaqlarının müdafiəsi uğrunda canından keçməyə hazırdır.

"Ali Baş Komandanın rəhbərliyi ilə günbəgün güclənən Azərbaycan Ordusu Vətənimizin keşiyində ayıq-sayıq dayanaraq öz müqəddəs missiyasını uğurla yerinə yetirir", - deyə V.Səfiyev bildirdi. - Bu baxımdan düşmənə təmas xəttində hərbi xidmət keçmək daha məsuliyyətli və şərəflidir. Dövlətimiz ağır təbii şəraitdə gecə-gündüz torpaqlarımızın keşiyində dayanan əsgər və zabitlərimizə həmişə diqqət göstərir, onların xidmət şəraitinin daha da yaxşılaşdırılması üçün ardıcıl tədbirlər həyata keçirir. Biz isə öz mövqelərimizdə ayıq-sayıq dayanmışıq. Başa düşürük ki, müharibə şəraitindəyik. Bu müharibə torpaqlarımız işğaldan azad ediləndən sonra başa çatacaq. Bunun üçün də vətənpərvərlik hissi ilə xidmət edərək özümüzü qəhrəman, cəsur, qüdrətli bir hərbçi kimi formalaşdırmalı və bütün çətinliklərə hazır olmalıyıq.

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# “Xatirələrdə, ürəklərdə yaşayan yenilməz sərkərdə” mövzusunda vətənpərvərlik tədbiri keçirilib

*"Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2019-cu il tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası ilə bağlı tədbirlər planı çərçivəsində yanvarın 31-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında "Xatirələrdə, ürəklərdə yaşayan yenilməz sərkərdə" adlı vətənpərvərlik tədbiri keçirilib.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə ulu öndər Heydər Əliyevin, general Həzi Aslanovun timsalında Böyük Vətən müharibəsində həlak olan qəhrəmanların, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni səsləndirilib.

Müdafiə Nazirliyi, Gənclər və İdman Nazirliyi rəsmilərinin, Bakı qarnizonundakı hərbi hissələrin, xüsusi təyinatlı təhsil müəssisələrinin, müharibə veteranlarının, veteran təşkilatlarının, qəhrəmanın adını daşıyan müəssisələrin, Həzi Aslanovun ailə üzvlərinin, eləcə də gənclərin iştirak etdikləri tədbirdə Respublika Veteranlar Təşkilatı sədrinin müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov, yubiley təşkilat komitəsinin üzvü, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani xalqımızın qəhrəman oğlunun mənalı ömür və şanlı döyüş yolu barədə ətraflı məlumat veriblər.

General Həzi Aslanov haqqında müharibə illərində çəkilmiş sənədli film və xüsusi buraxılışlardan fraqmentlər nümayiş olunub, veteranlar cəbhə xatirələrini bölüşüblər.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri Əməkdar artist Cahangir Qurbanov və Ağabala Abdullayev yenilməz sərkərdə haqqında vətənpərvərlik mahnıları ifa ediblər.

Gənclər və İdman nazirinin müavini İntiqam Babayev tədbirdə çıxış edərək Azərbaycan gənclərinin də "Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında" Prezident Sərəncamını böyük ruh yüksəkliyi ilə qarşıladıqlarını və bu istiqamətdə silsilə tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb. Nazir müavini Respublika Veteranlar Təşkilatının gənclərin vətənpərvərlik tərbiyəsində müstəsna xidmətlərini qeyd edib və bu işin bundan sonra da uğurla davam etdiriləcəyini bildirib. O, xalqımızın igid oğlu, general-mayor Həzi Aslanovun ömür yolunun Azərbaycan gəncləri üçün örnək olduğunu, Azərbaycanın oğlan və qızlarının qəhrəmanlıqlarının daha geniş təbliğinin vacibliyini vurğulayıb. Faşizm üzərində Qələbənin 75 illiyi ilə əlaqədar Gənclər və İdman Nazirliyinin də Respublika Veteranlar Təşkilatı ilə birlikdə respublikamızın bölgələrində yürüş, marafon, konfrans və görüşlər təşkil edəcəyi diqqətə çatdırılıb.

Tədbirin sonunda Təşkilatın sədri istefada olan general-polkovnik Tofiq Ağahüseynov 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə veteranların Azərbaycan gənclərinə ünvanladığı təbrik müraciətini nazir müavininə təqdim edib, tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

Anım mərasimində Həzi Aslanov irsinin tədqiqi və araşdırılmasında müstəsna xidmətləri olan Əməkdar incəsənət xadimi, tədqiqatçı-jurnalist Musa Bağırov, general Həzi Aslanovun nəvəsi Emin Aslanov çıxışlarında Azərbaycan Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə göstərilən diqqət və qayğıya görə minnətdarlıq ediblər.

"Xatirələrdə, ürəklərdə yaşayan yenilməz sərkərdə" adlı vətənpərvərlik tədbiri torpaqlarımızı işğaldan azad etməyə hər an hazır olan Azərbaycan Ordusunun güc və qüdrətini tərənnüm edən hərbi marşın ifası ilə başa çatıb.

# Gəncliyimiz - qürurumuzdur!

*2 Fevral - Gənclər Günü münasibətilə Əlahiddə Ümumqoşun Ordu, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində yerli icra hakimiyyəti orqanları və ictimai qurumların nümayəndələri ilə birgə bayram tədbirləri təşkil olunub.*

Tədbirlərdə əvvəlcə ümummilli lider Heydər Əliyevin və müstəqilliyimiz, ərazi bütövlüyümüz uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Təsdiq olunmuş plana əsasən, hərbi hissələrdə keçirilən bayram konsertləri, mədəni-kütləvi, hərbi vətənpərvərlik və digər tədbirlərdə şəxsi heyət, veteranlar, məktəblilər, tələbələr və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən tədbirdə çıxış edənlər əsgərlərimizin timsalında bütün gəncləri əlamətdar gün münasibətilə təbrik edərək xidmətlərində uğurlar arzulayıblar.

Bildirilib ki, ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı bütün sahələrdə olduğu kimi, dövlətin gənclər siyasətində də ciddi dönüş yaradıb. 1996-cı il fevralın 2-də gənclərin I Forumu keçirilib və 1997-ci ildə ümummilli lider Heydər Əliyevin sərəncamı ilə 2 fevral ölkəmizdə "Gənclər Günü" elan edilib.

Tədbirdə Naxçıvan Musiqi Kollecinin və hərbi hissələrin bədii özfəaliyyət kollektivlərinin konsert proqramı ilə çıxışları alqışlarla qarşılanıb.

* * *

2 Fevral - Gənclər Günü münasibətilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində də tədbir keçirildi. Çıxış üçün söz alan kursant Şirməmməd Babayev dedi:

- 2 fevral gəncliyin bayramıdır. Bu əlamətdar və gözəl günü biz gənclərə ümummilli lider Heydər Əliyev hədiyyə edib. Fevralın 2-nin Gənclər Günü elan olunduğu vaxtdan bizi 23 illik bir zaman məsafəsi ayırır. "Gənclik bizim gələcəyimizdir" - deyən ulu öndər Heydər Əliyev Azərbaycan gəncliyini həmişə güclü və qüdrətli görmək istəyirdi. Azərbaycan gənclərinin I Forumu 1996-cı il 2 fevral tarixində keçirildi. Forumda çıxış edən ümummilli lider Heydər Əliyev proqram xarakterli nitqində ölkə gənclərinin qarşısında dayanan mühüm vəzifələri müəyyənləşdirərək, gənc nəslin hərtərəfli inkişafı, problemlərinin həlli istiqamətində tədbirlərin görülməsi ilə əlaqədar bir sıra təşkilatların qarşısında təxirəsalınmaz vəzifələr qoydu.

Ulu öndər Heydər Əliyevin böyük uzaqgörənliklə formalaşdırdığı gənclər siyasəti bu gün yeni və həlledici mərhələyə qədəm qoyub. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Ümummilli Liderin gənclər siyasətinə sadiqliyini bu istiqamətdə qəbul etdiyi qərarları və imzaladığı sərəncamları ilə sübut edib. Dövlətimizin başçısı cəmiyyətdə gəncləri aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həll olunması məqsədilə 2005-2009-cu illəri əhatə edən Dövlət Proqramını təsdiq edib.



Prezident İlham Əliyevin 2007-ci ilin "Gənclər İli" elan edilməsi ilə bağlı Sərəncamı gənclərin ölkənin ictimai-siyasi və mədəni həyatında fəallığının daha da artırılmasına səbəb olmuşdur. Azərbaycanda müasir gənclər hərəkatının inkişafı üçün dövlət səviyyəsində kifayət qədər işlər görülmüş və görülməkdədir.

Gənclik böyük qüvvədir. Bu gün Azərbaycan gəncləri ölkəmizin ictimai həyatında, dövlətçiliyimizin möhkəmlənməsində böyük rol oynayır. Onların fəaliyyət göstərməsi üçün ölkəmizdə hərtərəfli şərait yaradılıb. Müstəqillik və dövlətçiliyimizin möhkəmləndirilməsi, etibarlı gələcəyimizin təmin edilməsi gənclərin sosial-siyasi fəallığının yüksəldilməsindən çox asılıdır. Müstəqilliyimiz möhkəmləndikcə gənclərimiz daha böyük və aparıcı qüvvəyə çevrilir. Gənclər bu istiqamətdə yorulmaq bilmədən fəallıqla çalışırlar. Dövlətimiz tərəfindən gənclərə böyük diqqət və qayğı göstərilir.

Çox sevindiricidir ki, bu gün gənclər vətənpərvərlik ruhunda böyüyürlər. Onların yurd sevgisi, torpağa məhəbbəti gündən-günə artmaqdadır. Bütün bunlar gələcək uğurlarımızdan xəbər verir. Sabahkı ordumuzun əsgərləri olacaq gənclər babalarımızın qəhrəmanlıq ənənələrini davam etdirməyə hazırdırlar.

Təhsil aldığımız hərbi məktəbin şəxsi heyətinin əksəriyyətini gənclər təşkil edir. Biz Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən qayğı ilə əhatə olunmuşuq. Diqqət və qayğı göstərilən yerdə isə həmişə tərəqqi və inkişaf olur. Kursantların burada təhsil almaları, oxumaları üçün hərtərəfli şərait yaradılıb. Gələcəyin zabitləri olacaq biz kursantlar dövlətin qayğısını hər addımda hiss edirik. Bütün bunlar isə məsuliyyətimizi ikiqat artırır. Göstərilən qayğıya əlaçı olmağımızla, yüksək hazırlığımızla cavab veririk. Bu əlamətdar gün münasibətilə ordu gənclərini təbrik edir, onlara xidmətlərində uğurlar arzu edirəm.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mədəni-bədii iş üzrə təlimatçısı Gülxar Məmmədova çıxış edərək Gənclər Günü münasibətilə kursantları təbrik etdi, onlara təhsillərində uğurlar arzuladı.

Çıxışlar başa çatdıqdan sonra Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi tədbir iştirakçıları qarşısında "Gəncliyimiz - qürurumuzdur" adlı konsert proqramı ilə çıxış etdilər. Mərkəzin solistləri vətənpərvərliyi, qəhrəmanlığı tərənnüm edən bir-birindən maraqlı və rəngarəng mahnılar oxudular.

Polkovnik Emin Səfərov sonda 2 Fevral - Gənclər Günü münasibətilə bir daha gəncləri təbrik etdi, onlara işlərində və xidmətlərində uğurlar arzuladı. Kursantlar qarşısında belə gözəl və dəyərli musiqi proqramı ilə çıxış etdiklərinə görə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinə minnətdarlığını bildirdi.

**Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyinin təşviqat qrupu silsilə tədbirlər keçirdi

*Müdafiə Nazirliyinin xüsusi təyinatlı hərbi təhsil müəssisələrinə qəbul qaydalarının şagirdlərə çatdırılması məqsədilə bölgələrdə və paytaxt Bakıda silsilə tədbirlər keçirildi.*



Müdafiə Nazirliyinin təşviqat qrupu yanvarın 21-dən 31-dək respublikamızın bütün bölgələrində yerləşən orta məktəblərin hərbi rəhbərləri və şagirdləri ilə görüşlər keçirdilər. Tədbirlərdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Silsilə tədbirlər zamanı baş tutan görüşlərdə məktəblilər arasında hərbi vətənpərvərlik və milli-mənəvi şüurun təbliği və aşılanması işinin ən yüksək səviyyəyə çatdırılmasında Müdafiə və Təhsil nazirliklərinin birgə fəaliyyətinin mühüm aspektlərindən danışıldı. Hərbi vətənpərvərlik işinin orta təhsil ocaqlarında daha da səmərəli təşkili üçün fikir mübadilələri aparıldı, hərbi rəhbərlərin təklifləri və istəkləri qeydə alındı.



Müdafiə Nazirliyinin zabitləri Natiq Məhərrəmov, Rüstəm Ağayev, Zöhrab Hacıyev, Fərhad Məsimov, Rəşad Hüseynov, Firavan Şərfalıyev çıxışlarında Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə, Hərbi Tibb Fakültəsinə və Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul qaydaları haqqında müfəssəl məlumat verərək bu məktəblərin təminatından, sosial-məişət şəraitindən, təhsilindən danışdılar. Bu gün xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin hər birində kifayət qədər təcrübəli müəllimlərin, müasir texniki avadanlıqlarla təchiz olunmuş dərs siniflərinin, praktiki vərdişlərin artırılması üçün təlim mərkəzlərinin olduğunu diqqətə çatdırdılar. Hətta bu məktəblərdə dünyanın bir çox ölkələrindən təhsil alan kursantların olduğu və öz kursantlarımızdan da yüksək nəticə göstərənlərin xarici ölkələrə təlim kurslarına göndərildiyi məlumatı da verildi.

Zabitlər ölkəmizdə aparılan uğurlu ordu quruculuğu siyasətindən də danışaraq müstəqil Azərbaycan dövlətinin qurucusu, müasir ordumuzun banisi ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətinin bütün dövrlərində gənclərimizdə hərb peşəsinə marağın gücləndirilməsi işinə ciddi diqqət yetirdiyini bildirərək Ulu Öndərin dediyi "Zabit olmaq, hərbi vəzifə daşımaq gənclərimizin ən müqəddəs vəzifələrindən biri olmalıdır" sözlərini şagirdlərin nəzərinə çatdırdılar. "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ordu quruculuğu ilə bağlı həyata keçirdiyi tədbirlər bu gün onun siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən inamla, uğurla davam etdirilir. Bu gün təməli Ulu Öndər tərəfindən qoyulan ordumuz müstəqilliyimizin, dövlətçiliyimizin qarantıdır. Yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan Ordusu regionun ən güclü ordusu və xalqımızın güvənc yeridir. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu prosesi davamlı sürətdə təkmilləşdirilir, hərbi hissələr ən müasir hərbi texnika ilə təchiz olunur, yüksək şəraitə malik hərbi şəhərciklər, döyüş poliqonları yaradılır. Bütün bunların nəticəsidir ki, hazırda torpaqlarımızı düşməndən azad etməyə qadir, yüksək döyüş ruhuna malik ordumuz formalaşıb. Bu, özünü uğurlu Aprel döyüşləri və Günnüt zəfəri zamanı əyani şəkildə təsdiqlədi", - deyə zabitlər bildirdilər.

Müəllim kollektivi də çıxış edərək bir vətəndaş kimi ordumuzla və əsgərlərimizlə fəxr etdiklərini, gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasının ən vacib vəzifələrindən biri olduğunu diqqətə çatdırdılar. Bildirdilər ki, pedaqoji kollektiv olaraq daim çalışırıq ki, şagirdlərdə Vətənə məhəbbət hissini daha da qüvvətləndirək, vətənpərvərliyin məzmununu onlara düzgün çatdıraq. "Tədris olunan dərslərlə yanaşı, Vətəni müdafiə etməyin, torpaqlarımızı qorumağın, hərbi vəzifə daşımağın şərəfli iş olduğunu gənclərə aşılamaq hər birimizin borcudur: Hərbi vətənpərvərlik tərbiyəsi bir məqsədə - gəncləri Vətənimizin fəal müdafiəsinə hazırlamaq məqsədinə xidmət edir. Vətənpərvərlik və milli-mənəvi şüurun təbliği və aşılanması məsələsinə pedaqogikada da xüsusi diqqət edilir. Vətənpərvərlik pedaqoji prosesdə tədris olunan mövzuların məqsədində mütləq yer alır. Ermənistanla olan



müharibə vəziyyəti hər an torpaqlarımızın güc yolu ilə azad olunması reallığını ortaya qoyur. Bu işin reallaşdırılması əsasən gənc nəslin üzərinə düşür. Belə bir şəraitin mövcud olması gənc nəslin vətənpərvərlik ruhunda formalaşdırılmasını labüd edir. İctimai səciyyə daşıyan vətənpərvərlik tərbiyəsi şagirdlərin vətəndaş kimi formalaşmasında, öz Vətənini, ləyaqətini qorumaqda mənəvi təsir gücünə malikdir. Vətənpərvərlik Vətənin tarixini öyrənməkdə, sərhədlərini qorumaqda, lazım gələrsə, dövlətin müəyyənləşdirdiyi qaydalara şüurlu əməl etməkdə ifadə olunur. Bu işdə tədris olunan hərbi hazırlıq fənlərinin böyük əhəmiyyəti var. Hərbi hazırlıq dərslərində şagirdlər təkcə silahlardan istifadə qaydalarını öyrənmir, eyni zamanda, Vətənə bağlılığını, hərb peşəsinə olan maraqlarını artırırlar. Orta ümumtəhsil məktəblərində çağırışaqədərki hərbi hazırlıq fənninin tədrisinin əsas məqsədi, ilk növbədə, gəncləri ölkənin müdafiəsinə indidən psixoloji cəhətdən hazırlamaqdır. Eyni zamanda, məktəblərdə ibtidai hərbi hazırlıq dərslərinin tədrisi şagirdlərin vətənpərvər ruhda böyüməsinə öz təsirini göstərir. Həmçinin məktəblər arasında "Cəsurlar", "Şahinlər" kimi hərbi-idman oyunlarının keçirilməsi də şagirdlərdə cəsarətliliyi, çəldliyi, mübarizliyi, qələbə qazanmaq uğrunda iradə möhkəmliyinin təmin olunmasını öyrədir. Bütün bu kimi işlər nəticə etibarilə gənclərə vətənpərvərlik hisslərinin aşılanmasında mühüm rol oynayır", - pedaqoqlar bildirdilər.

Tədbirlərdə hərbi məktəblər haqqında videoçarxlar nümayiş etdirildi, qəbulla bağlı şagirdlərin sualları cavablandırıldı və hərbi vətənpərvərlikdən bəhs edən filmlər nümayiş olundu.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində zabitlərin özbaşınalığı və vəzifə səlahiyyətlərini aşma səbəbindən cinayət xarakterli müxtəlif hadisələr baş verir.

İşğalçı ordunun bölmələrində bu günlərdə böyük səs-küyə səbəb olan hadisə baş verib.

Məlum olub ki, həmin hərbi hissələrdə xidmət edən zabitlər mütəmadi olaraq kef məclisləri qurur və böyük miqdarda spirtli içki qəbul edirlər. Sonradan sərxoş vəziyyətdə xidmət yerinə gələn zabitlər nizamnamələrin tələblərini kobud şəkildə pozaraq gecə yarıdan keçdikdən sonra şəxsi heyəti "Həyəcan" siqnalı ilə qaldırır və müxtəlif "yoxlamalar" keçirirlər.

Bu "yoxlamalar" zamanı təhqirlərə və fiziki təzyiqlərə məruz qalan hərbi qulluqçuların şikayətləri nəticəsində hərbi polis araşdırmaya başlayıb.

Hadisə ictimaiyyətdən gizlədilsə də, faktla bağlı istintaq davam edir. Bir neçə müxtəlif vəzifəli zabitin müvəqqəti olaraq "Hauptvaxta" göndərildiyi bildirilir. Faktlar təsdiqini taparsa, zabitlərin dəmir barmaqlıqlar arxasına göndəriləcəyi istisna edilmir.

* * *

Son vaxtlar Ermənistan hökuməti tərəfindən orduda vəziyyətin yaxşılaşması, təminatın güclənməsi, qidanın keyfiyyətinin artması barədə təbliğat kompaniyası təşkil edilməsinə baxmayaraq, baş verən neqativ halların sayı yenə də azalmır.

Bu isə düşmən ordusunda vəziyyətlə bağlı mətbuata təqdim edilən xəbərlərin yalan olduğunun və orduda sosial vəziyyətin dözülməz həddə çatdığının əyani sübutudur. Bunu 2019-cu ildə təminatın və təchizatın zəif olması səbəbindən işğalçı orduda baş verən cinayət hadisələri və qanun pozuntuları da təsdiq edir.

Bu yaxınlarda Ermənistan ordusunda baş verən növbəti biabırçılıq barədə informasiya ictimaiyyətə məlum olub.

Belə ki, işğalçı ordunun hərbi hissələrində müqaviləli hərbi qulluqçuların və zabitlərin pul təminatının ödənilməsi ilə bağlı böyük problemlər meydana çıxıb. Bu barədə müqavilə əsasında Noyemberyan yaşayış məntəqəsində yerləşən hərbi hissədə xidmət edən Pavel Kotanov adlı hərbçi öz qohumları ilə söhbətində bildirib. Hərbçinin sözlərinə görə 2019-cu ilin iyul ayından şəxsi heyətə ezamiyyət pulları və digər xərclər üçün heç bir ödəniş edilmir. Komandanlığa müraciət edənlərə isə hərbi hissəyə ayrılan və illik smeta ilə nəzərdə tutulan maliyyə vəsaitinin tükəndiyi barədə məlumat verilir.

Xəbərdə o da bildirilir ki, pullarını ala bilməyən hərbi qulluqçular özlərini və ailələrini dolandırmaq üçün cinayətə əl ataraq hərbi hissəyə məxsus əmlakı, xüsusilə yanacaq və hərbi sursatı oğurlayıb satmağa məcbur olurlar.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Erməni terrorizmi. Ermənistanın Azərbaycana qarşı təcavüzü.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən Azərbaycanın tarixinə dair nəşr olunmuş vəsaitlərdən, dövri mətbuatda çap olunmuş materiallardan istifadə etməli və öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə alaraq, mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

**Suallar:**

**1. Ermənilərin Azərbaycana qarşı ərazi iddialarının və təcavüzünün formalaşması tarixi.**

**2. XX əsrin axırlarında erməni separatçılığı. Ermənistan-Azərbaycan münaqişəsinin yaranma tarixi.**

### *Ermənilərin Azərbaycana qarşı ərazi iddialarının və təcavüzünün formalaşması tarixi*

Qafqazın tərkib hissəsi olan, misilsiz gözəllikləri göz qamaşdıran Azərbaycanın iqlimi, bitki və heyvanlar aləmi, füsunkar təbiəti son dərəcə rəngarəngdir. Azərbaycan zəngin təbii sərvətləri, əlverişli coğrafi mövqeyi və münbit torpaqları ilə çox qədimdən bir sıra qonşu dövlətlərin diqqətini özünə cəlb edib. Buna görə də Azərbaycana göz dikən düşmənlərimiz çox olub və bu ərazilər tarixən müharibələr meydanına çevrilib. Bu faciələrin unudulmaz tarixi XIX əsrin əvvəllərində daha dəhşətli olmuşdur. Belə ki, həmin dövrdə Azərbaycan 1813-cü ildə Gülüstan və 1828-ci ildə Türkmənçay müqavilələri nəticəsində iki yerə bölünüb, Azərbaycanın müxtəlif bölgələrinə (ən səfalı yerlərə - Qırxbulaq, Sürməli, Zəngibasar, Dərəçiçək, Göyçə mahallarına və başqa yerlərə) ermənilərin kütləvi halda yerləşdirilməsinə başlanılıb.

Son iki (XIX-XX) əsrdə Azərbaycan ərazisində xalqımızın rastlaşdığı ağır sınaqlarda, faciəli tarixi hadisələrdə bu və ya digər dərəcədə erməni izi vardır. Erməni xalqı qonşu torpaqlarına sahib çıxmaq üçün yaranan hər bir fürsətdən əlverişli istifadə etməyə çalışır. Bölgədə mürəkkəb tarixi şərait yaranan kimi, ondan ifrat dərəcədə bəhrələnməyə çalışan ermənilər, ərazisində yaşadıqları Azərbaycan xalqının hesabına bu gün artıq öz dövlətçiliklərinə də malikdirlər. Uzun illər boyu Azərbaycan xanlıqlarının ərazilərində öz dövlətlərini yaradan ermənilər daha böyük iddialarla yaşayırlar.

Eramızın 327-ci ilinə kimi Kiçik Asiyada xırda dövlət olan Ermənistan sonralar İran dövləti və Bizans imperiyası arasında bölüşdürülmüşdür. Həmin vaxtdan İranın tərkibində olan erməni çarlığı 428-ci ildə tamamilə ləğv edilmiş, ermənilər isə bütün dünyaya səpələnmişlər. Bu zamandan 1918-ci ilin mayına qədər erməni dövləti, erməni milli dövlətçiliyi olmamışdır.

1917-ci ildə Rusiyada bolşeviklər hakimiyyətə gəldikdən sonra mərkəzi Tiflis şəhəri olmaqla Azərbaycan, Gürcüstan və Ermənistanın ərazilərini birləşdirən Zaqafqaziya seymi yaradıldı. Seymə Azərbaycan və Gürcüstanın nümayəndələri ilə birlikdə ermənilər də daxil idilər. Ancaq hadisələrin sonrakı inkişafı nəticəsində 1918-ci il mayın 27-də Gürcüstan, 28-də isə Azərbaycan Zaqafqaziya seymindən çıxaraq müstəqil dövlət qurduqlarını elan etdilər. Bundan sonra isə ermənilərin ən çox məskunlaşdıqları keçmiş İrəvan xanlığının ərazisində, mərkəzi İrəvan şəhəri olmaqla, Ermənistan Respublikası yaradıldı.

Burada ermənilərin Qərbi Azərbaycanda və Qarabağda məskunlaşması tarixinə nəzər salaq:

Səfəvilər dövlətinin vaxtında Azərbaycan inzibati-ərazi quruluşuna görə bəylərbəyliklərə bölünmüşdü. İndiki Ermənistanın ərazisi, Naxçıvan da daxil olmaqla Çuxur Sədd bəylərbəyliyi adlanırdı. XVIII əsrdə Azərbaycanda olan fransız səyyahı Jan Şarden Çuxur Sədd bəylərbəyliyinin mərkəzi İrəvan qalasının 800 evdən ibarət olduğunu və burada ancaq təmiz səfəvilərin (yəni, azərbaycanlıların) yaşadığını yazırdı.

1736-cı ildə Nadir şah Azərbaycanda mövcud olmuş inzibati-ərazi quruluşunu - bəylərbəyilikləri (Qarabağ, Şirvan, Təbriz və Çuxur Sədd) ləğv etdi və həmin ərazilərdən ibarət mərkəzi Təbriz şəhəri olmaqla Azərbaycan vilayəti yaratdı. 1747-ci ildə Nadir şah öldürüldükdən sonra Azərbaycanın ərazisində müstəqil xanlıqlar, o cümlədən İrəvan xanlığı yarandı.

Rusiya qoşunları 1827-ci ildə Azərbaycanın paytaxtı Təbriz şəhərini işğal etdilər. 1828-ci il Türkmənçay müqaviləsinə əsasən rus qoşunları Cənubi Azərbaycanı tərk etməli oldular. Çar Rusiyası öz əsarəti altına aldığı Şimali Azərbaycanda möhkəmlənmək üçün İranda yaşayan ermənilərin İrəvana və Qarabağa köçürülməsi prosesini təşkil etdi.

Rus-İran müharibəsi başa çatdıqdan sonra 1828-ci il martın 21-də rus çarı I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqları ləğv edilib, onların əvəzinə "erməni vilayəti" adlanan inzibati-ərazi vahidi yaradıldı. 1828-1830-cu illərdə İrandan 40 min, Osmanlıdan 84 min erməni Yelizavetpola, İrəvana və Qarabağa köçürülmüşdür.

Ermənilərin tarixi Azərbaycan ərazilərinə köçürülməsinin ikinci dalğası XIX əsrin 90-cı illərində başlanıldı. Belə ki, XIX əsrin 90-cı illərində ermənilərin Osmanlıdan kütləvi surətdə Qafqaza köçürülməsi (Yelizavetpol quberniyasına 150 min nəfər) ilə əlaqədar öz təcavüzkar siyasəti ilə məşhur olan erməni millətçi "Daşnaksütyun" partiyasının mərkəzi də Qafqaza köçdü və ermənilərə Qafqaz xalqlarına qarşı təcavüzü təbliğ etməyə başladı.

1904-1905-ci illərdə qonşu dövlətlərdən 45 min erməninin tarixi Azərbaycan ərazilərinə köçürülməsinin üçüncü dalğası davam etdirilmişdir.

Beləliklə, Rusiyanın himayədarlığına əmin olan ermənilər tarixi Azərbaycan torpaqlarında məskunlaşdırıldıqdan sonra "Böyük Ermənistan" yaratmaq iddiaları ilə azərbaycanlılara qarşı mübarizəyə başladılar. Çar hökuməti tərəfindən cəmiyyətin diqqətini birinci Rus inqilabından yayındırmaq məqsədilə 1905-1907-ci illərdə İrəvanda ermənilər və azərbaycanlılar arasında fitnə vasitəsilə yaratdığı qanlı döyüş ermənilərin azərbaycanlılara qarşı soyqırımın başlanğıcı və 1918-1920-ci illərdə baş vermiş dəhşətli hadisələr isə azərbaycanlılara qarşı soyqırımı siyasətinin davamı oldu. 1905-ci ilin fevral ayında ermənilər tərəfindən Bakıda, Naxçıvanda, İrəvanda yüzlərlə azərbaycanlı qətlə yetirildi. 1918-ci ilin martında Bakıda, Qubada, Lənkəranda Şaumyanın rəhbərliyi altında ermənilər 10 min azərbaycanlını qətlə yetirdilər.

Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra yaradılan Azərbaycan Ordusu köməyə gələn Türkiyə qoşunlarının köməyi ilə erməni silahlı birləşmələrinə qarşı bir sıra uğurlu əməliyyatlar apararaq azərbaycanlıların kütləvi qırğınının qarşısını ala bildilər. Lakin türk qoşunları Azərbaycanı tərk etdikdən və Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə süqut etdikdən sonra Ermənistan rus bolşeviklərinin dəstəyi ilə 1921-ci ildə Azərbaycanın Zəngəzur bölgəsini ələ keçirə bildi.

İki əsr ərzində Rusiyanın havadarlığı ilə ermənilərin Azərbaycana qarşı təcavüz siyasəti XX əsrin axırlarına yaxın daha kəskin bir hal aldı, ermənilərin iqtisadi-sosial problemlər bəhanəsi ilə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi siyasəti davam etdirildi. Əslində, ermənilər bu planı gerçəkləşdirməyə 1923-cü ildə Dağlıq Qarabağa Muxtar Vilayət statusu verməklə başlamışdılar. Bununla kifayətlənməyən qatı erməni millətçiləri "Böyük Ermənistan" yaratmaq naminə tarixi həqiqətlərə məhəl qoymadan işğalçılıq siyasətlərini həyata keçirdilər və bununla da Dağlıq Qarabağ ərazisi və ona bitişik 7 rayonu işğal etdilər.

### *XX əsrin axırlarında erməni separatçılığı. Ermənistan-Azərbaycan münaqişəsinin yaranma tarixi*

Sovet hakimiyyəti illərində öz məkrli niyyətlərini gizlədən ermənilər ermənipərəst Mixail Qorbaçovun (1985-1991-ci illərdə SSRİ rəhbəri olmuşdur) SSRİ rəhbərliyinə gəlişindən sonra fəal hərəkətə keçdilər. 1985-ci ilin dekabrında ABŞ-dakı erməni inqilabı federasiyası (daşnak partiyası) və erməni milli komitəsi Birləşmiş Ermənistan yaratmağı özlərinin strateji vəzifəsi elan etdi. "Birləşmiş Ermənistan" Naxçıvanı, Qarabağı və Gürcüstanın tərkibində olan Axalkalakini də özündə birləşdirməli idi.

Mixail Qorbaçovun milli siyasət sahəsində buraxdığı kobud səhvlərə qarşı öz etirazını bildirməklə ermənilərin planlarının həyata keçməsinə mane olan görkəmli dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyev 1987-ci ilin oktyabrında SSRİ rəhbərliyindən uzaqlaşdırıldıqdan dərhal sonra, 1987-ci ilin noyabrında Dağlıq Qarabağ erməniləri öz separatçı tələblərini irəli sürdülər və bununla da bu gün də öz həllini tapmamış Qarabağ problemi yarandı.

1988-ci il fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin (DQMV XDS) yalnız erməni deputatlarının iştirakı ilə keçirilən növbədənkənar sessiyası vilayətin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın inzibati-ərazi bölgüsünə daxil edilməsi haqqında qərar qəbul etdi. Azərbaycan SSRİ Ali Soveti DQMV XDS-nin konstitusiyaya zidd qərarını rədd etdikdən sonra Ermənistanın millətçi rəhbərləri "Daşnaksütyun" partiyasının "Türksüz Ermənistan" proqramını həyata keçirməyə başladılar.

1988-ci il iyunun 15-də Ermənistan SSRİ Ali Sovetinin sessiyası DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul edərək SSRİ Ali Sovetinə müraciət etdi ki, buna razılıq versin. 1988-ci il iyulun 18-də SSRİ Ali Soveti Rəyasət Heyətinin iclası DQMV haqqında məsələni müzakirə edərək respublikalar arasında sərhədlərin dəyişdirilməsini yolverilməz hesab etdikdən sonra, erməni millətçiləri türklərin Ermənistandan çıxarılması üçün hər yerdə mitinqlər təşkil etməyə başladılar.

1988-ci ilin iyununda erməni dəstələri azərbaycanlılar yaşayan Masis rayonunun mərkəzinə və Zəngilər, Zəhmət, Dəmirçi, Dostluq, Nizami, Sarvanlar kəndlərinə basqınlar etdilər. Müdafiəsiz qalmış on mindən çox azərbaycanlı SSRİ-Türkiyə sərhədində toplaşaraq, orada gecələməyə məcbur olmuşdu. Masis qəsəbəsində 3 mindən çox azərbaycanlı evlərindən çıxarılmışdı.

1988-ci ilin noyabrın ortalarına qədər Azərbaycana 80 mindən çox qaçqın pənah gətirmişdi.

1988-ci ilin noyabr-dekabr aylarında Ermənistanın azərbaycanlı əhalisi yaşayan kəndlərə ərzağın göndərilməməsi, elektrik xətlərinin kəsilməsi, kəndlərə silahlı basqınlar əhalini öz tarixi vətənindən qaçqın düşməyə məcbur etdi.

1988-89-cu illərdə indiki Ermənistan ərazisində azərbaycanlıların yaşadıqları 170 təmiz və 94 qarışıq yaşayış məntəqəsi boşaldıldı. Ümumiyyətlə, Ermənistanın 22 kənd və rayonundan, 6 şəhərindən 200 mindən artıq azərbaycanlı tarixi-etnik torpaqlarından qovuldu.

Ermənistan rəhbərliyi azərbaycanlıların deportasiyasını başa çatdırdıqdan sonra, onların yaşadıqları kəndlərin adlarını dəyişdirməyə başladı. Son 200 ildə indiki Ermənistan ərazisində iki mindən artıq azəri-türk yaşayış məntəqəsi müxtəlif yollarla siyahıdan silinmiş, tarixi Azərbaycan torpaqlarında monoetnik Ermənistan dövləti yaradılmışdır.

1991-1993-cü illərdə Azərbaycanda yaranmış mürəkkəb ictimai-siyasi vəziyyətdən istifadə edən Ermənistanın silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətrafda olan 7 rayonu - Laçını, Kəlbəcəri, Ağdamı, Füzulini, Cəbrayılı, Qubadlını və Zəngilanı işğal etməyə müvəffəq oldu.

2016-cı ildə Ermənistanın növbəti təxribatı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində də çox ciddi fəsadlara gətirib çıxarmışdır. Ermənistan daima danışıqları müxtəlif yollarla pozmağa çalışmış və beynəlxalq vasitəçilər tərəfindən onlara qarşı təzyiqlər artdığı halda növbəti təxribatlara əl atmağa başlamışlar. Aprel döyüşlərində və Günnüt əməliyyatında Azərbaycan əsgəri düşmən təxribatının qarşısını vaxtında alaraq hər cür təxribata inamla layiqli cavab verərək, əks-hücum əməliyyatı həyata keçirmiş və işğal altındakı torpaqların bir hissəsini düşmən tapdağından azad etmişdir. Aprel döyüşləri və Günnüt əməliyyatı bir daha onu göstərdi ki, vasitəçilərin də dəfələrlə bəyan etdikləri kimi status-kvo tezliklə dəyişdirilməli və işğal edilmiş torpaqlar azad edilməlidir.

Bu gün Azərbaycanın hərbi potensialının gücləndirilməsi prioritet olaraq qalmaqdadır. Azərbaycan Ordusu ən müasir döyüş texnikası, silah-sursatla öz arsenalını gücləndirməklə və döyüş, mənəvi-psixoloji hazırlığını artırmaqla daim döyüş qabiliyyətini gücləndirir. Hazırda Azərbaycanın ərazisinin 20 faizi düşmən işğalı altındadır. Həmin torpaqların azad edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında məqsədyönlü siyasət aparılır. Bu fəaliyyətin tərkib hissəsi ordu quruculuğudur. Cənab Ali Baş Komandan ilk çıxışında ordu quruculuğunu daim öz diqqət mərkəzində saxlayacağını bildirmişdir: "Biz çalışacağıq və əminəm nail olacağıq ki, bu ordu daha da güclənsin və qarşıda duran bütün məsələləri həll edə bilsin".

Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu ümummilli lider Heydər Əliyevin başladığı və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır.

İşğal olunmuş torpaqlarımızın azad edilməsi uğrunda aparılacaq döyüşlər hər bir hərbi qulluqçudan öz vəzifə borcunu vicdanla yerinə yetirməyi, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməyi, intizamlı, mənəvi-psixoloji və fiziki cəhətdən hazırlıqlı olmağı tələb edir.

**İdeoloji İş və
Mənəvi-Psixoloji
Təminat İdarəsi**

*Ön xətdə disput*

# Böyük Qələbənin işığını görürük!



*Ön xətdə, səngərlərin yan-yörəsində qar görünmür. Qara qış torpağa hələ ki, qar səpələməyib. Səpələsəydi, gözə də xoş gələrdi, könülə də. Bayaqdan bəri bir fikir düşüncələrimin nizamını şeirləşdirməyə meyillidi: Ana Torpaq, qar kürkünə bürünüm...*

Qar qalağı səngərlərdən bir mənzillik uzaqdadı; səngərlərin ətəyində addabudda qar görünür. Gecə yağıbmış. Şaxta dondurub, ona görə əriməyib. "Əvvəllər qar üstünə qar yağardı..." söhbətə giriş məqsədilə belə deyirəm. Zabit Ruslan Novruzovun davamlı baxışları əvvəl əsgərlərin baxışlarına sarılır, sonra qarşı tərəfə yönəlir. Bu heysiyyətli baxışların mahiyyətini, mətləbini az qala nəfəs dərmədən gözlərimə, gözlərimdən düşüncələrimə köçürməkdəyəm. Havada qar qoxusu var, ancaq yağmır. Hansı duyuma görəsə qarsız göylərə baxıram; baxışımda umacaq varmı, yoxmu - özümə də bəlli deyil. Sanılı saniyələr ötüşüncə zabit Ruslan Novruzovun bayaqdan bəri eşitmək həvəsində, dinləmək marağında olduğum kəlmələrinin cazibəsinə düşürəm:

- Qar yağsa da, yağmasa da, əsgərlərimiz döyüş növbətçiliyini Hərbi anda, dövlətə, dövlətçiliyə sədaqətlə, məsuliyyətlə aparırlar. Azərbaycan əsgərinin döyüş növbətçiliyini Ali Baş Komandanın döyüş əmri, döyüş əmrini qələbə tamamlayacaq, torpaqlarımız işğaldan azad ediləcək.

Zabitin məmləkətimizin istəyini ifadə edən əminliyi əsgərlərin baxışlarını qarşı tərəfə yönəldir. Bu bəşəri baxışları bir mətləb birləşdirib: Böyük Qələbənin işığını görürük, Vətən!

Bu gümanım əsgərlərin düşüncələrində gərəkli bir tərpəniş yaradır. Belə dönməz tərpənişin eynini 2016-cı ilin mart ayının sonlarında Cocuq Mərcanlıda görmüşdüm.

- Uşaqlığımızda məhəlləmizi, sonra kəndimizi tanımışıq, sevmişik. Böyüdükcə rayonumuzu, Azərbaycanımızı tanımışıq, sevmişik. Vətənin nə olduğunu onda dərk etmişik. Azərbaycanımıza xitabən biz də "Səndən ötrü can verməyə cümlə hazırız!", - demişik. Ailədə valideynlərimizin, məktəbdə müəllimlərimizin söhbətləri bizim də Vətən sevgimizi dolğunlaşdırıb, - əsgər Tariyel Zeynalov belə deyir. Əsgər Kərim Kəbiyev əsgər yoldaşının fikrini belə tamamlayır:

- Həm dolğunlaşdırıb, dərinləşdirib, həm də dönməzləşdirib...

Belə əsgərlərin baxışlarına ürəyinin gözü ilə baxanlar görər ki, bu baxışlar var səsiylə "Böyük Qələbə!", - deyir. Bu baxışlar düşüncələri ifadə edir, döyüş növbətçiliyinin mahiyyətini, ürəyinin təpərini, Vətən sevgisini, Hərbi anda, dövlətə, dövlətçiliyə sədaqətini ifadə edir, min illik dövlətçilik tariximizə ehtiramını ifadə edir, xalqın orduya inamını, güvəncini, ordunun xalqa arxalandığını ifadə edir. "Yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan Azərbaycan əsgərinin bu mahiyyətli, bu mətləbli baxışları da silahdı", - deyirəm.

Bayaq müşahidə etdiyim tərpəniş ürək-ürək dalğalanır, çalxalanır. Bu coşqu dənizi xatırladır; Ali Baş Komandanın döyüş əmri bu dalğalanmanı, bu çalxantını səngərlərdən döyüş üzünə çıxardacaq, Azərbaycan əsgəri Böyük Qələbənin sonuncu gülləsinə doğru döyüş-döyüş irəliləyəcək.

Söhbətləşdiyimiz müddətdə sulu qar yağırdı. Daha yağmır...

Zabit Ruslan Novruzov əsgərlərdən soruşur ki, bayaqdan bəri sizinlə səmimiliklə kəlmələşən jurnalistin son fikrinə - "Azərbaycan əsgərinin mahiyyətli, mətləbli baxışları da silahdı" fikrinə nə deyirsiniz.

Araya bir anlığa insafsız sükut çökür. Bu sükut düşünmək üçünmüş.

Əsgər Mahmud Salmanov xalq şairi Xəlil Rza Ulutürkün 90-cı illərdə - milli azadlıq, müstəqillik hərəkatı genişlənəndə, coşqusuyla rus imperiyasını qorxuya salanda, dünyanı heyrətləndirəndə hamının əzbərində olan şeirindən misralar deyir və fikrini belə tamamlayır:

- Dövlətin orduya yüksək və müntəzəm diqqətinin, qayğısının nəticəsidir ki, Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Son illərdə ordumuzun silahlanmasına ən müasir döyüş texnikaları, uçuş aparatları, qurğular daxil edilib. Dünya bunların bir hissəsini Azərbaycan Ordusunun yaranmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm paradlarda gördü. Əsgərlər onların istismar xüsusiyyətlərini yüksək səviyyədə mənimsəyib. Yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan Azərbaycan əsgərinin Vətən sevgisi də silahıdı, döyüş növbətçiliyi aparanda nəzarətdə saxladığı ərazilərdə dikilən baxışları da.

"Əsgər Mahmud Salmanov Azərbaycan əsgərini təmsil edir", - düşünürəm və əsgərin bu səviyyəli düşüncəsiylə qürurlanıram. Bu qürurun işığı zabit Ruslan Novruzovun da diqqətini çəkir:

- Hərbi xidmət həm də əsgərləri kamil bir vətəndaş kimi formalaşdırır. Hərbi xidmətdə əsgərlərin dünyaduyumu da genişlənir, məntiqi düşüncələri də.

Söz sözü çəkir.

1993-cü ilin qışında Murovdağda mayor Qurban Qurbanovdan eşitdiklərimi xatırlayıram, xatırladıram:

- Ağdərə əməliyyatından əvvəl əsgərlərdən biri dedi ki, komandir, müharibə qələbəmizlə başa çatacaq, tərxis olunacağıq. Hərəmiz bir işin qulpundan yapışacağıq. Çox istərdim ki, qalib Azərbaycan əsgəri cəmiyyətdə də yaxşılar sırasında olsun, dürüst davranışıyla, insanlara və insanlığa bəşəri münasibətiylə, kamil vətəndaşlığıyla fərqlənsin. Hərbi xidmət bizlərə belə gərəkli keyfiyyətlər aşılayır.

- Biz də bilirik ki, ictimaiyyətə yol hərbi xidmətdən keçir. Ali təhsili olanlar da, olmayanlar da tərxis olunduqdan sonra cəmiyyətə qoşulur. Müəyyən mənada əsgər ömrünün davamını yaşayır. Bu davamın başlanğıcı Hərbi andiçmədi. Mənə belə gəlir ki, kamil vətəndaş Hərbi anda hərbi xidmətdən sonra da sədaqəti olanlardır, yəni, Hərbi and son nəfəsəcən yerinə yetirilməli olan vəddir, - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Vüsal Xəlilovun dedikləri ürəyimizi dağa döndərir. Bir daha əmin oluruq ki, hərbi xidmət Azərbaycan əsgərini mətinləşdirir, dünyagörüşünü genişləndirir, xarakterini formalaşdırır, Vətən sevgisini dönməzləşdirir.

Belə düşünən əsgərlərin azərbaycançılığın qalibiyyət gecəsi - 1990-cı ilin 19 yanvar gecəsi haqqında fikirləri düşüncələrimizə hopur. Əsgərlərin hamımızın bildiyimiz faktlara fərdi (və heysiyyətli!) münasibəti təsdiqləyir ki, onlar Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlayacaqlar.

Baxışlarım döyüş növbətçiliyi aparan əsgərlərin sevgisinə söykəkli baxışlarıyla qoşalaşır. O baxışlar səngərləri sərhədlərə köçürmək niyyətindədi, o baxışlar Böyük Qələbəyə aparacaq yolu nişan verir...

Azərbaycanda xalqın müstəqillik mübarizəsi 1990-cı ilin 19 yanvar gecəsinədək (və ondan sonra da!) dünyanı heyrətdə saxladı. Bu heyrətin mahiyyəti milyonları bu işığın sərhədsiz haləsi etmişdi, xalq amal birliyinin, əqidə, murad, istək birliyinin cəfakeşiydi.

Əsgərlər 19 yanvar gecəsindən, o gecənin dəhşətlərindən, yanvarın 20-dən, 21-dən, şəhidlikdən, şəhidlərdən danışır. Hər kəlmədə hiddət var, hiddətə söykəkli qürur var. Hiddət 20 Yanvar faciəsini törədənlərə ünvanlanır, qürur - azərbaycançılığın qalibiyyətinə...

20 yanvar faciəsinin 30 illiyi ərəfəsində ön xətdə "Azərbaycançılığın qalibiyyət gecəsi" mövzusunda keçirilən disputda əsgərlərin dedikləri fikirləri xatırladıram: "19 Yanvar gecəsi Bakıda törədilənlər insanlığa sığmayan vəhşiliyiydi, dövlətin vətəndaşlarına qarşı görünməmiş qəddarlığıydı, həm də xalqın mübarizə əzmindən qorxmağın təzahürüydü", - başqa hərbi hissədə Elvin Abbaslı belə demişdi. Bu hərbi hissədə Bəhman Alıyev deyir ki, 20 Yanvarda dünya dövlətin vətəndaşına necə qəddarlıq etdiyini gördü". Ruhun yaxınlığına, müəyyən mənada eyniliyinə necə heyrətlənməyəsən?! Disputda "...xalq rus imperiyasının... döyüş texnikalarının qarşısına ruhunun qətiyyətiylə çıxmışdı", - deyən Sabir Nurməmmədli də, bu hərbi hissədə "19 yanvar gecəsi təsdiqləndi ki, imperiyanın döyüş texnikalarının qarşısına ruhuyla çıxan xalqı məğlub etmək mümkün deyil", - deyən əsgər Tariyel Zeynalov da, onların əsgər yoldaşları da eyni əqidənin əsgəridi. Bu əqidə azərbaycançılıqdı, Azərbaycan dövlətçiliyidi...

Dövlətçilik tariximizi vətəndaşlıq borcu kimi öyrənən əsgərlərimizin "Böyük Qələbənin işığını görürük, Vətən!" dediyini yerlər də eşidir, göylər də...

Qar yağacaq...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Ukrayna və Türkiyə hərbi yardım və AN-178 təyyarələrinin tədarükü barədə saziş imzalayıb



Ukrayna və Türkiyə hərbi yardım və AN-178 təyyarələrinin tədarükü barədə saziş imzalayıb.

Bu barədə Kiyevdə Prezident Vladimir Zelenski Prezident Rəcəb Tayyib Ərdoğanla keçirdiyi birgə brifinq zamanı bildirib.

Bundan əlavə, tərəflər Qara dəniz bölgəsində təhlükəsizliyin gücləndirilməsi məsələsini müzakirə ediblər.

"Bu gün, həmçinin hərbi-maliyyə əməkdaşlığı haqqında əhəmiyyətli bir saziş imzalandı. Buna görə Ukrayna ordusu türk tərəfdaşlarından maddi yardım alacaq. Bununla yanaşı, aviasiya sənayesində, xüsusən də AN-178 təyyarələrinin istehsalı və təchizatı ilə bağlı əməkdaşlığın gücləndirilməsi barədə razılıq əldə edilib", - deyə V.Zelenski bildirib.

### Türkiyə İdlibdə 40-dək hədəfə cavab zərbəsi endirib



Türkiyə Silahlı Qüvvələrinin F-16 qırıcı təyyarələri və artilleriyası Suriyanın İdlib əyalətində türkiyəli hərbçilərin atəşə tutulmasına cavab olaraq 40-dək hədəfə zərbə endirib.

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ukraynaya səfəri öncəsi keçirdiyi mətbuat konfransında məlumat verib. Prezident bildirib ki, cavab atəşi nəticəsində 30-35 suriyalı zərərsizləşdirilib. F-16 qırıcıları və qaubitsalar hədəflərə zərbə endirməkdə davam edir.

İnsidentdən sonra Rusiya və Türkiyə hərbi mütəxəssislərinin əlaqədə olduqlarını qeyd edən Ərdoğan deyib: "Bizim generallarımız sıx təmasdadır və danışıqlar aparırlar. Biz əməliyyatlarımızı bu danışıqlara əsaslanaraq davam etdiririk".

Xatırladaq ki, İdlibdəki türk hərbçilərinə hücum nəticəsində dörd nəfər həlak olub, biri ağır olmaqla 9 əsgər yaralanıb.

### Polşa ABŞ-dan 32 ədəd F-35 qırıcı-bombardmançı təyyarə alacaq



Polşa ilə ABŞ arasında 32 ədəd F-35 qırıcı-bombardmançı təyyarələrinin alınmasına dair müqavilə imzalanıb.

Polşa sözügedən qırıcıları almaq üçün ABŞ tərəfinə 4,6 milyard dollar ödəyəcək. Razılaşmanı Polşanın Müdafiə naziri Mariuş Blaşak və ABŞ-ın bu ölkədəki təmsilçisi Jorjett Mosbaxer imzalayıb.

Sözügedən razılaşma ilə bağlı şərh verən Prezident Andjey Duda bunu Polşanın təhlükəsizliyi üçün ən vacib anlaşmalardan biri adlandırıb. Baş nazir Mateuş Moraveskiy isə öz növbəsində ölkəsinin ABŞ ilə münasibətlərinin dərinləşməsində maraqlı olduğunu vurğulayıb. Qırıcı təyyarələrin Polşaya gətirilməsi 2024-cü ildən 2030-cu ilədək olan dövrə planlaşdırılıb. Bununla da Polşa NATO-nun F-35-ə sahib 10-cu ölkəsi oldu.

Polşa 50 ədəd F-16 qırıcısına sahibdir. İndi alınan təyyarələr isə hazırda ölkədə olan sovet istehsallı MiQ-29-ları əvəzləyəcək.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Hərbi liseylərinə 2020-2021-ci tədris ili üçün kursant qəbulu qaydaları

**I. Ümumi müddəalar:**

Tədris dili: Azərbaycan dili.

Təhsil forması: əyani.

Təhsil müddəti: 2 il.

Yaş həddi: 15 sentyabr 2020-ci ilə qədər 15 yaşı tamam olan və 17 yaşı tamam olmayan, qəbul ilində ümumi təhsil pilləsinin ümumi orta təhsil səviyyəsini bitirən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları qəbul edilirlər.

**II. Sənədlərin qəbulu:**

Hərbi liseylərə qəbul olmaq istəyən namizədlər 1 aprel 2020-ci il tarixdən 30 aprel 2020-ci il tarixədək ərizə ilə lisey rəisinə müraciət etməlidirlər. Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:

- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə);
- oxuduğu sinfin 1-ci yarımilinin qiymət cədvəli;
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;
- sinif rəhbəri tərəfindən yazılmış və məktəb direktoru tərəfindən təsdiq edilmiş xasiyyətnamə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış;
- 6 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas) - 4 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm ölçüdə;
- valideynlərin və ya qəyyumlarının notarial qaydada təsdiq edilmiş razılıq ərizələri;
- burunətrafı boşluqların rentgenoqrafiyası;
- sakit vəziyyətdə və fiziki yükdən sonra EKQ;
- qanın ümumi analizi, qan qrupu və rezus-faktor;
- qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara dair müayinələrinin nəticələri;
- qanın hepatit C və hepatit B-yə dair müayinələrinin nəticələri;
- sidiyin ümumi analizi;
- nəcisdə helmintlərin yumurtalarının müayinəsinə dair tibbi sənəd;
- dizenteriya qrupuna dair müayinə, əsnəkdən və burundan difteriya çöplərinin aşkar edilməsi üçün müayinə;
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar;
- xroniki və son 12 ay ərzində keçirdiyi yoluxucu və parazitar xəstəliklərə görə dispanser qeydiyyatında olub-olmaması barədə məlumatlar, ambulator xəstənin tibbi kartı (olunmuş peyvəndlər haqqında məlumat), stasionar xəstənin tibbi kartından çıxarışlar (forma № 27U), rentgenoqramlar, xüsusi müayinə metodlarının protokolları və vətəndaşın səhhətini xarakterizə edən digər tibbi sənədlər (məktəblinin tibb kartası - forma № 26U).

Ümumi orta təhsil haqqında attestat, doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin əsli namizəd tərəfindən komissiyaya gələrkən şəxsən təqdim edilir.

**III. Hərbi liseylərə qəbul aşağıdakı qaydada həyata keçirilir:**

Namizədlər müraciət etdikləri Hərbi liseydə yaradılmış komissiyada hərbi həkim komissiyasından keçməlidirlər. Hərbi həkim komissiyasından keçmənin tarixi sənəd qəbulu zamanı qəbul komissiyası tərəfindən bildirilir.

Hərbi həkim komissiyasından müvəffəqiyyətlə keçən namizədlər internet vasitəsi ilə elektron ərizə formasını doldurur, şifrə və iş nömrəsini çap edir, sonra həmin şifrə və iş nömrəsi ilə Hərbi liseyin Sənəd Qəbulu Komissiyasına gələrək elektron ərizə formasını təsdiq etdirirlər. Namizədlər qəbul imtahanlarının başlama tarixinə 3-5 gün qalmış Hərbi liseyin Sənəd Qəbulu Komissiyasından imtahana buraxılış vərəqəsi alırlar. Ümumi orta təhsil haqqında attestatda hər hansı bir fənn üzrə illik qiymət "3"-dən aşağı olan namizədlərə buraxılış vərəqəsi verilmir.

Namizədlər Dövlət İmtahan Mərkəzi tərəfindən test üsulu ilə keçirilən qəbul imtahanı verirlər. Test imtahanı aşağıdakı fənlər üzrə Azərbaycan dilində aparılır:

- Azərbaycan dili;
- riyaziyyat;
- fizika;
- kimya.

Namizədlər Hərbi liseylərə Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanının nəticələrinə əsasən qəbul edilirlər.

Hərbi liseylərə qəbul olan kursantlar təhsil müddətində bütün təminat növləri ilə təmin olunur və ayda 51 AZN məbləğində müavinət alırlar.

Sənədlər C.Naxçıvanski adına Hərbi Liseydə qəbul olunur (ünvan: Bakı şəhəri, Xətai rayonu, Naximov küçəsi, Zığ-1 Hərbi Şəhərciyi. Əlaqə telefonu: 479-80-24).

Naxçıvan Muxtar Respublikasında yaşayan şəxslər sənədlərini Heydər Əliyev adına Hərbi Liseyə (Naxçıvan şəhəri) təqdim edirlər (əlaqə telefonu: 544-00-15, 544-00-16).

Elektron ərizələrin doldurulma, imtahana buraxılış vərəqəsinin verilmə, imtahanların başlama tarixləri barədə məlumatlar Dövlət İmtahan Mərkəzinin internet saytında və kütləvi informasiya vasitələrində elan olunur.

*Hərbi texnikalar, silahlar*

# "Bumeranq" zirehli transportyoru

"Bumeranq" zirehli transportyorunun təqdimatı 2013-cü ildə keçirilib. Kütləyə açıq şəkildə Qələbə gününə həsr edilmiş paradda nümayiş etdirilib. Müasir maşının çəkisi 20 tondur. Maşının əsas güc bölməsi onun burun hissəsində yerləşir, bu da onu düşmənin güclü atəşindən və partladılmasından qorumağa imkan verir. Desantların yerləşməsi üçün maşının arxa hissəsində lyuk qurašdırılıb. Digər maşınlara nisbətən zirehli transportyorun desant bölməsinin həcmi genişləndirilib. Əvvəllər döyüşçülər zirehli jiletdən istifadə etmədiklərinə görə desant bölməsi kiçik həcmdə nəzərdə tutulmuşdu. Hazırda əsgərlər müxtəlif silah-sursatla təchiz olunduğuna görə yer geniş götürülüb. Bu həm də təhlükəsizliyin təmin edilməsi üçün yaxşıdır. "Bumeranq" zirehli transportyorunun hazırlanması zamanı çoxqatlı poladdan istifadə edilib. Çoxqatlı poladdan istifadə edilməsi həm də kumulyativ döyüş sursatlarına qarşı daha çox effektlidir. Texniki xüsusiyyətlərinə görə "Bumeranq"ın zirehi kiçik kalibrli artilleriya atəşinə, tank əleyhinə qumbaralara, eyni zamanda, irikalibrli pulemyot atəşinə qarşı davamlıdır. Onun mühərriki 600 at gücündədir. Təkər formulu 8x8-dir. Maşın suda üzə və hərəkət edə bilir.



Silahlanmasına 30 mm-lik 2A42 avtomat top, PKT pulemyotu, idarəolunan "Kornet" raketləri ilə atəş açan tank əleyhinə raket kompleksi daxildir. Avtomat topun döyüş dəsti 500 mərmidən ibarətdir. Döyüş dəsti heyətdən və desant qrupundan kənarda yerləşdirilib.

Ən müasir silahlarla təchiz edilən maşında həm komandir, həm də tuşlayıcı-operator atəşaçmanı həyata keçirə bilər. Verilən məlumata görə "Bumeranq"ın əsasında tank əleyhinə mobil kompleks, PDM, təkərli tank, zirehli transportyor, bir çox xüsusi nəqliyyat vasitələrinin hazırlanması da nəzərdə tutulub. Daha sonra burada müasir atəşi idarəetmə və müşahidə sistemləri də quraşdırılacaq.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan qılıncoynadanları Serbiyada keçirilən yarışda uğurlu çıxış edirlər



Şpaqa üzrə kişilərdən ibarət Azərbaycan milli komandasının üzvləri Serbiyanın paytaxtı Belqradda keçirilən dünya kubokunun mərhələ yarışında mübarizə aparırlar.

Turnirdə ölkəmizi Ruslan Həsənov, Xalid Əliyev, Fərrux Səfərov və Barat Quliyev təmsil edirlər.

Turnirin birinci günündə kişilərin şəxsi yarışında mübarizəyə start verilib. Şpaqaçılarımızdan qrup mərhələsində keçirdiyi 6 görüşdən 4-də qalib gələn R.Həsənov pley-offa yüksəlib. İdmançımız bu mərhələdə macarıstanlı Gergeli Kovaks ilə üz-üzə gələcək.

Qrup mərhələsini 3 qələbə ilə başa vuran F.Səfərov isə pley-offda Sloveniya idmançısı Dominik Steblayı 15:11 hesabı ilə məğlub edib. O, növbəti mərhələdə ukraynalı Dimitro Mikitenko ilə qarşılaşacaq.

Digər təmsilçilərimiz Barat Quliyev və Xalid Əliyev pley-off mərhələsinə yüksəlsələr də, bu pillədə məğlub olaraq mübarizəni erkən dayandırıblar.

Dünya kuboku turnirinin mərhələ yarışında 39 ölkədən 225 idmançı birincilik uğrunda mübarizə aparır.

## Azərbaycan cüdoçusu Sofiyada keçirilən açıq Avropa kubokunda gümüş medala sahib olub



Azərbaycan cüdoçusu Bolqarıstanın paytaxtı Sofiyada keçirilən açıq Avropa kubokunda gümüş medala sahib olub.

Bütün rəqiblərini məğlub edən Oruc Vəlizadə (60 kq) qızıl medal uğrunda görüşdə braziliyalı Felipe Pelim ilə qarşılaşıb. Həlledici mərhələdə rəqibinə uduzan cüdoçumuz ikinci yerlə kifayətlənməli olub.

## Azərbaycan şahmatçıları "Aeroflot Open" turnirində iştirak edəcəklər




Fevralın 17-dən 27-dək Moskvada "Aeroflot Open" beynəlxalq şahmat festivalı keçiriləcək.

Festivalın güclü şahmatçıların mübarizə aparacaqları "Open A" turnirində Azərbaycan təmsilçilərindən Rauf Məmmədov, Vasif Durarbəyli və Aydın Süleymanlı iştirak edəcəklər. "Open B" turnirində təmsilçilərimiz Məhəmməd Muradlı, Elvin Bayramov və Read Səmədov mübarizə aparacaqlar.

Qeyd edək ki, ötən il keçirilmiş analoji yarışda Azərbaycan şahmatçısı Məhəmməd Muradlı 9 turdan 6,5 xal toplayaraq üçüncü yeri tutub.

## Almaniyada keçiriləcək "Böyük dəbilqə" turnirində Azərbaycanı 20 cüdoçu təmsil edəcək



Fevralın 21-dən 23-dək Almaniyanın Düsseldorf şəhərində cüdo üzrə "Böyük dəbilqə" turniri keçiriləcək.

Azərbaycanı bu nüfuzlu yarışda 20 cüdoçu (14 kişi, 6 qadın) təmsil edəcək.

Yarışda 122 ölkədən 900-dək cüdoçu mübarizə aparacaq.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 33
Nüsxə 3900